

# Bakı artıq neft şəhəri sayılmır

## Əcnəbilər paytaxtımızı Qərbin Dubayı, Şərqin Parisi adlandırırlar

Xəbər verildiyi kimi, iyun ayının 6-dan üzü bəri Prezident İlham Əliyev Bakıda yeni elektrik yarımstansiyasının və Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzinin açılışında iştirak etmiş, yeni salınmış "Çəmbərəkənd" parkında yaradılan şəraitlə tanış olmuş və istifadəyə verilən "Şərq Bazarı" kompleksinə bərpa və yenidənqurma işləri bitdikdən sonra baş çəkmişdir.

Hər üç tədbir məzmunca bir-birindən fərqlənsə də, mahiyyət etibarilə ölkə vətəndaşlarının rifahına və həyat səviyyəsinin yaxşılaşmasına xidmət edir. Bu baxımdan Azərbaycanın müharibədən yeni çıxan dövlət olmasına, böyük bir hissəsinin uzun illərdir ciddi dağıntılara məruz qalmasına baxmayaraq, müasir dünyanın tələbləri ilə uzlaşan çoxşaxəli uğurlara imza atmasının şahidiyik. Artıq dünya Bakını müasir şəhər kimi qəbul etsə də, qədim paytaxtımız öz simasını tarixi keçmişinə və tolerant təbiətinə uyğun cilalamaqla daha yüksək tərifə layiqdir.

Paytaxtımızda "Azərişıq" ASC-nin yeni yarımstansiyasının və Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzinin açılması bütün ölkə üzrə enerji təhlükəsizliyinin qorunması istiqamətində atılan növbəti çoxsaylı addımlardan biridir. Ötən əsrin 90-cı illərini yadımıza salaq. Hətta Bakıda tez-tez işıqlar sönərdi. Rayonlarda, ucqar dağ kəndlərində isə insanlar günlərlə elektrik enerjisinə həsrət qalardılar. İş o yerə çatmışdı ki, buna hamı vərdiş etmişdi. Bu gün bütün ölkədə, hətta ucqar kəndlərdə belə işığın bircə saatlığa sönməsi gözlənilməz və nadir hadisə sayılır.

Paytaxtın Yasamal rayonu ərazisində, Füzuli meydanının yaxınlığında tikilən yeni yarımstansiya Bakının elektrik enerjisinə sürətlə artan tələbatını qarşılamaq üçün nəzərdə tutulmuşdur. Yarımstansiyanın digər vəzifəsi şəhərin elektrik təchizatının etibarlılığının və dayanıqlılığının təmin edilməsi üçün perspektivdə yaranacaq yüklərin "Müşfiq" və "Xırdalan" yarımstansiyaları arasındakı paylayıcı rolunu oynamaqdır. Yeni yaradılacaq dairəvi sxemin tərkib hissəsinə aid olan yarımstansiyanın əlaqələndirilməsi "Yasamal-1", inşa ediləcək "Təzə Bazar", "Zəfər" və mövcud "Dağlıq" yarımstansiyaları vasitəsilə həyata keçiriləcək.

Dövlət başçısı eyni zamanda "Azərişıq" ASC-nin Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzini işə salıb. Yeni rəqəmsal idarəetmənin tətbiqi və ya paylayıcı şəbəkələrin intellektual-rəqəmsal idarə olunması sayəsində elektrik enerjisinin ötürülməsi və paylanmasına fasiləsiz nəzarət həyata keçiriləcək, müasir kompüter proqram sistemləri isə insan amili təsirinin aradan qaldırılmasını təmin edəcək. Bununla rəqəmsallaşma beynəlxalq tələblər çərçivəsində iqtisadi səmərəliliyin yaxşılaşdırılması istiqamətində mühüm təyinedici texnoloji vasitə kimi çıxış edəcək.

Bakını fərqləndirən cəhətlərdən əsası odur ki, paytaxtımız simasını qoruyaraq dəyişir. Təxminən 20 il əvvəl bəzi memarlar proqnoz verirdilər ki, Bakı gözəllikləri sürətlə artan şəhərə çevriləcək, göydələnlər və parklarla zənginləşəcək. İnanmaq çətin idi, amma biz bu gün onun şahidi oluruq. Son misal. Qeyd etdiyimiz kimi, bu günlər Həsən Seyidbəyli küçəsindəki istifadəsiz ərazidə "Çəmbərəkənd" parkı salınmışdır. Parkda yaşıllaşdırma işləri aparılmış, 1200 metr piyada yolları çəkilmişdir. Sakinlərin istirahəti və asudə vaxtlarını keçirmələri üçün parkda hər cür şərait yaradılmışdır. Burada tarixə səyahət etmək, keçmişə qayıtmaq da mümkündür.

Maraqlısı odur ki, görülən istənilən abadlıq işi Bakının simasına yeni çalarlar gətirir, onu dünyanın ən gözəl şəhərlərindən biri edir. Paytaxtda icra edilən coxsaylı müasir sosial infrastruktur layihələri, salınan yeni park və xiyabanlar, istirahət guşələri onu həm yerli sakinlərin, həm də əcnəbilərin sevimli şəhərinə çevirir.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 15 iyun.- S.17.